# Məktəb təcrübəsində müəllim-şagird münasibətlərinin həyata keçirilməsi vəziyyəti

**Rəqsanə Tapdıq qızı Haqverdiyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** haqverdiyeva.reqsane@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. F.M. Allahverdiyeva,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** müəllim, məktəb, münasibət, şagird, kollektiv, cəmiyyət, təhsil, inkişaf
**Ключевые слова:** учитель, школа, отношение, студент, коллектив, сообщество, образование, развитие
**Key words:** teacher, school, attitude, student, collective, community, education, development

Respublikamızda milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyətlər yetişdirmək məqsədi ilə təlim prsesinin səmərəliliyini təmin etməklə təhsil islahatlarının həyata keçirilməsi tədqirə laiq addımdır. Bu prosesin səmərəli şəkildə tətbiqində təbii ki, düzgün qurulmuş müəllim şagird münasibətləri mühüm rol oynayır. Qarşılıqlı ünsiyyət şagirdlərin özünəinamını yaradır, bu isə şz növbəsində onların idrak fəallığını artırır. Kollektiv şəkildə işləməyə istiqamət verir.

Neçə əsrlərdir ki, təhsil cəmiyyətin inkişafının aparıcı meyarı kimi çıxış edir. Təhsil bu gün hansı səviyyədədirsə, gələcəkdə cəmiyyət eyni səviyyədə çıxış edəcəkdir. V.Q.Belinskinin söylədiyi kimi. təhsilin növləri içərisində ən mühüm vəzifə mənəvi-əxlaq təhsilinin üzərinə düşür. A. Sent-Ekzüperi: "Tərbiyə təhsildən üstündür. Çünki insanı tərbiyə yaradır. Təhsil əslində mürəkkəb bir sistemdir, hansı ki, burada öyrədən və öyrənən arasındakı qarşılıqlı əməkdaşlıq formalaşır.

Cəmiyyət inkişafa doğru iri addımlarla irəlilədikcə, bu öz növbəsində şəxsiyyətin inkişafına da təkan verərək təsir göstərir. Bu baxımdan günümüzün aktual problemlərindən biri də gələcəyimizin istiqamət vericiləri olan gənclərimizin müasir düşüncə tərzində formalaşdırılması üçün milli maraqlara cavab verə biləcək təhsil və tərbiyə sisteminin yaradılmasıdır. Deməli, təlim və tərbiyə müasir şagirdi dövrünün tələblərinə cavab verən şəxsiyyət kimi yetişdirmə bacarığına sahib olmalıdır.

Müəllim-şagird münasibətlərinin məktəblərdəki hazırkı vəziyyəti köhnə ənənəvi sistemdəki nöqsanların aradan qaldırılmasına yönəldilmiş şəkildə həyata keçirilir. Ənənəvi təlim-tərbiyə metodunda müəllim əsas aparıcı qüvvə kimi çıxış edir, o pedaqoji proses zamanı fəal idi və bu müasir şagirdin maraqlarına cavab verən vəziyyət olmadığından nöqsanlar özünü biruzə verməyə başladı. Beləliklə, təhsil islahatları nəticəsində yeni fəal interaktiv təlim metoduna keçirilirdi.

Fəal interaktiv təlim metodunun ən qabaqcıl özəlliyi müasir tələblərə cavab verən, fikrini sərbəst ifadə etməyi bacaran, milli, mənəvi və bəşəri dəyərlərə hörmət edən şəxsiyyət formalaşdırmasıdır. Fəal interaktiv təlimdə şagirdlər həm maraqlarına uyğun bacarıqlarını nümayiş etdirə, həm də əvvəlki metoddan fərqli olaraq müəllimləri ilə fikir mübadiləsi, diskussiyalar etməklə özlərinə, bacarıqlarına inam qazanmış olurlar ki, bu isə onların özlərinə şəxsiyyət kimi baxmaqlarına şərait yaradır.

Yeni təhsil islahatı öz ilkin addımında bir sıra müəllim şagird, müəllim valideyn arasında bir sıra ünsiyyət problemləri ilə qarşılaşmış olsa da, qismən bu münasibətin bərqərar olmasına nail olmuş və olacaqdır. Bu islahatların tələbinə uyğun şagirdlərin formalaşdırılması işi nəinki müəllim şagird arasındakı münasibətdən həmçinin müəllim valideyn və valideyb şagird arasındakı ünsiyyətdəndə asılıdır.

Müəllim-şagird münasibətləri əvvəllər şagirdlərin onlardan çəkinərək fikirlərini çatdıra bilməməsi ilə nəticələnirdisə, indiki sistemdə şagird müəllim münasibəti əməkdaşlıq şəklində, qarşılıqlı dialoq, ünsiyyət şəklində həyata keçirilir ki, şagird belə vəziyyət içində fikirlərini çəkinmədən ifadə edə bilir. Köhnə metdoların ən qabaqcıl nöqsanı şagirdlərin özünü ifadəsinin qarşısını almaqdan ibarət idi.

Müəllim ailə nəzarətindən kənarda qalan şagirdlərlə daha məsuliyyətli məşğul olmalı və nəzarəti altında saxlamalıdır. Pedaqji proses zamanı muəllim-şagird arasındakı münasibətlərin təlim prosesini optimallaşdırdığı kimi müəllim valideyn arasındakı əməkdaşlıqda bu prosesin sürətlənməsinə təkan verir. Belə ki, müəllim valideyn əməkdaşlığını artırmaqla şagirdlərin təlim prosesindəki fəallığını artırmaq, onların təhsilə marağını stimullaşdırmaq, evlə məktəb arasında sabit əməkdaşlıq yaratmaq olar. Valideynlərin tövsiyələrindən yararlanmaq olduqca zəruridir.

Məktəb təcrübəsində müəllim-şagird münasibətlərinin səmərəli tətbiqi müəllimin pedaqoji ustalığa yiyələnmə bacarığından asılılıq təşkil edir. Məhz pedaqoji ustalığın təsiri ilə süstləşən uşaq ruhunun, qəlbinin ehtiyacını müəllim duya bilər və lazım olan qayğını göstərə bilər.

Cəmiyyət inkişaf etdikcə, həqiqətlərin daha dərindən öyrənilməsi məqsədi ilə elmlər müxtəlif inteqrasiya prosesi keçirməyə məruz qaldı. Ümumi pedaqogikanın bir elementi olan pedaqoji ustalığın əsasları da fəlsəfə, sosiologiya, fiziologiya, genetika, psixlogiya, incəsənət, məntiq, natqlik və s. ilə qarşılıqlı əlaqədədir.

Müəllimin fəaliyyəti cəmiyyətin tələbatına yönəlmiş fəaliyyət olduğundan, müəllim mövcud cəmiyyətin bu günki və gələcək tələb və ehtiyaclarını duymaq bacarığına malik olmalıdır. Müəllim-müəllim şagird münasibətlərinin səmərəli şəkildə baş tutması üçün pedaqoji prosesdə məsul şəxsdir. O, gərək real, knkret şəraitlə, problemlə hesablaşa bilsin və öz işini qurmağı bacarsın. Müəllimin şagirdlərlə münasibətində həm şagirdin, həm də müəllimin istəyi öz ifadəsini tapmalıdır. Müəllim və şagirdin istəyi üst-üstə düşməlidir. Məhz bu zaman pedaqoji prosesdə müəllim- şagird əməkdaşlığı özünə yol tapır.

Bütün qeyd edilənlərdən aydın olur ki, məktəblərimizdə aparılan təlim tərbiyə işlərinin müvəffəqiyyətlə baş tutması müəllim şagird münasibətlərndən, psixoloji dildə izah etsək, şəxsiyyətlər arasında baş vərən münasibətdən çox asılıdır. Deməli, müəllim şagird münasibətləri təlim tərbiyə işlərinin keyfiyyətinə təsir edən mühüm amildir.

Ənənəvi təlim metodundan müasir təlim metodunu fərqləndirən başlıca səbə də ünsiyyətlə bağlılıq təşkil edir. Belə ki, ənənəvi təlim metodu zamanı pedaqji prosesin əasa aparıcı qüvvəsi müəllim olduğu üçün hec bir ünsiyyət prosesi baş vermirdi, lakin müasir təlim medodu nəinki müəllim şagird münasibətinin yaranmasına hətta şagird şagird münasibətinin yaranmasına təsir edərək təlim prosesinin optimallaşmasını sürətləndirir, onun tədris keyfiyyətini yüksəldir.

Pedaqoji proses özü özlüyündə çox mürəkkəb prosesdir, çünki təlim prosesi zamanı müəllim şagirdlərə yalnız bilik vermir, onların tərbiyəsinə, şəxsiyyət kimi yetişməsinə təkan verməklə onlara həyat dərsi verir, onları böyük həyata hazırlayır. Bütün bunların səmərəli nəticəsinə düzgün qurulmuş müəllim şagird münasibətlərinin təsiri böyükdür. Pedaqoji prosesin inkişafı təlim zamanı obyektlə subyekt arasındakı qarşılıqlı münasibətin necəliyindən asılıdır. Pedaqoji prosesin obyekti dedikdə, şagirdlər və onların qrupları (sinif, məktəb kollektivi) nə-

zərdə tutulur. Pedaqoji prosesin subyektini isə müəllim, tərbiyəçi, valideyn, pedaqoji şura, ictimai təşkilatlar, pedaqoji kollektiv və başqaları təşkil edir. Pedaqoji proses elə təşkil edilməlidir ki, pedaqoji proses zamanı obyekt subyektə çevrilə bilsin. bu hadisənin baş verməsi üçün pedaqoji prosesdə müəllim şagird münasibətlərinin pedaqoji psixoloji əsaslarına əməl edilməlidir. Bu cəhətin nəzərə alınmaması pedaqoji prosesdə obyektin subyektə çevrilməsini ləngidə bilər. Pedaqoji proses zamanı müəllim şagirdin qarşısına qoyduğu tələbi onların bu tələbi yerinə yetirə bilmək imkanlarını nəzərə alaraq qurmalıdır. İrəli sürülən tələblər şagirdlərin imkanlarına uyğun gələrsə, bu zaman inkişafa səbəb olur. Əks halda pedaqoji prosesin ləngiməsinə və nöqsanlarına səbəb olur.

Pedaqoji prosesin tamlığı üçün bir çox əlaqələr mövcuddur ki, (tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı arasındakı əlaqə, şəxsiyyətin fəaliyyəti və ünsiyyəti arasındakı əlaqə və s.) bunlardan başlıcası pedaqoji prosesin obyekt və subyekti arasındakı əlaqədir. Müəllim şagirdlərini nə qədər çox öyrədir və onların müstəqil fikir yürütmələri üçün nə qədər az şərait yaradırsa, təlim prosesi bir o qədər səmərəsiz olur və əksinə, təlim prosesi qarşılıqlı münasibətdə yəni, müəllimin izahı və şagirdin idrak fəallığı şəraitində aparılması biliklərin mənimsənilməsinə və şagirdlərin şüurunun inkişafına təsir göstərir.

Dərsin səmərəli keçməsi müəllimin dərs müddətində dərsi öyrətməsindən yox, şagirdləri öyrənmək üçün fəallaşdıra bilmək məharətindən asılıdır. Təlim prosesi bu cür münasibətlə qurularsa, şagirdlərin öyrənmə fəaliyyəti yüksələr, onların idrak fəallığı inkişaf edər. Belə nəticəyə gəlinir ki, şagirdlər yalnız hadisələrin təsviri ilə kifayətlənmir, hadisələr arasında səbəb-nəticə əlaqələri axtarmağa başlayırlar. Bu isə öz növbəsində onların şüurunun, idrak fəallığının inkişafına səbəb olur. İdrak fəallığı fəaliyyətə başlamış şagird, adətən daha sərbəst, daha inamla fəaliyyət göstərir və nəzəri məsələlərdə tam müstəqilliyə can atırlar.

Pedaqoji ədəbiyyatlarda təlim prosesi zamanı şagird və ya müəllim fəallığının təlim prosesinə təsirinə daha geniş yer verilmişdir. Halbuki, təlim prosesi yalnız tərəflərdən birinin iştirakı ilə baş verən proses deyildir. Təlim prosesinin optimallaşmasına müəllim şagird münasibətləri daha çox təsir edər. Pedaqoji prosesdə təlimin səmərəliliyinin başlıca səbəbi təlim prosesində müəllim və şagird fəaliyyətlərinin bir-birini şərtləndirməsi ilə bağlıdır.

**Məqalənin aktuallığı.** Məktəb təcrübəsində müəllim-şagird münasibətlərinin həyata keçirilməsi vəziyyəti həmişə, xüsusən də ölkədə geniş xarakter alan təhsil islahatlarının aparıldığı, yeni təlim metodlarının tətbiq olunduğu hazırkı zamanda daha böyük əhəmiyyət kəsb edir. Məqalədə məhz mu mövzuya həsr olunduğundan onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə keçmiş sovet dövründən fərqli olaraq, məktəblərimizdə müəllim-şagird münüsibətlərinin hazırkı vəziyyəti təhlil edilir, yeni təhsil islahatlarına əsasən, fəal interaktiv təlim metodunun tətbiqi zamanı müəllimlə şagirdin hüquq və vəzifələri dəqiqləşdirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Qanun, 2010.

2.Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) //Kurikulu m, 2008, № 1.

3.Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyaı/ Azərb aycan müəllimi, 28 iyul, 2006-cı il.

4. Əhmədov H.H. Azərbaycan təhsilinin strategiyası. Bakı: Elm, 2010.
5. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005.
6. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, səh.59-69.
7. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Nurlan, 2007.
8. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Bakı: BDU-nun nəşri, 2003.

**Р.Т. Хагвердиева**

## Состояние учительско-ученических отношений в школьной практике

## Резюме

Внедрение отношений учитель-ученик в школьную практику всегда имело большое значение, особенно в контексте масштабных образовательных реформ в стране и внедрения новых методов обучения. В статье также анализируется текущее состояние отношений между учителями и учениками в наших школах, в отличие от стран бывшего Советского Союза, и разъясняются права и обязанности учителей и учеников при внедрении активного интерактивного метода обучения, основанного на новых образовательных реформах.

**R.T. Haqverdieva**

## Condition of teacher-student relations in school practice

## Summary

Implementation of teacher-student relationships in school practice has always been of great importance, especially in the context of large-scale educational reforms in the country and the introduction of new teaching methods. The article also analyzes the current state of teacher-student relationships in our schools, unlike those of the former Soviet Union, and clarifies the rights and responsibilities of teachers and students in the implementation of an active interactive learning method, based on new educational reforms.

**Redaksiyaya daxil olub:** 27.12.2019